# Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasına işgüzar səfərə gedib






**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 10-da Tacikistan Respublikasına işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Düşənbə Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının sədr müavini Mavsuma Muini, Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Sahibə Qafarovanın Düşənbədə keçirilən "Tacikistan Respublikası Konstitusiyasının 30-cu ildönümü" beynəlxalq parlament konfransında çıxışı və digər tədbirlərdə iştirakı nəzərdə tutulub.

***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 11 oktyabr (№223).- S.2.